

Nizami Tağısoy

# "Beket" dramında folklorla tarixiliyin vəhdəti

**M.Auezovun dramaturji yaradıcılığından danışarkən onun "Beket" pyesi ilə bağlı da mülahizələr bildirməyə ehtiyac duyuruq. Bəri başdan deyək ki, "Beket" faktik olaraq sənətkarın yaratdığı həyatda olan tarixi obrazlarının real prototiplər qalereyasını davam etdirir.**

Bu dramın əvvəlki əsərlərlə oxşar və uyğun cəhətlərinə baxmayaraq, Beket Serkebayevin mahiyyəti və onunla bağlı düşüncələr tarixi şəxsiyyət probleminə həsr olunmuş əsərlərdən bir sıra prinsipial məqamları ilə seçilir. Əsərin yazılmasında M.Auezovun novatorluğu nəinki mövzu seçimində, şəxsiyyətə müraciətdə, kütlələrin həyat xüsusiyyətlərini əks etdirməkdə, həm də əzilmiş, alçaldılmış insanların müdafiəsinə qalxmış keyfiyyət baxmından yeni qəhrəman obrazına müraciətdə özünü doğruldur.

Folklor mənbələri və tarixi faktlara söykənən müəllif "Beket" dramında da batırın mübarizəsinin sosial-ictimai mahiyyətinə daha çox diqqət yetirməyi qarşıya məqsəd qoymuşdur Auezov Beket obrazını elə yapmışdır ki, o, göz önündə fəal sosial mübarizliyi əks etdirən bir obraz kimi canlanır.

Auezov bu əsərindəki bədii obrazlarda folklora xas olan təsvir prinsipləri dramın təbiətinə xas olan qəhrəmanlıq xarakterinin göstərilməsi realist tendensiyaların daha çox diqqət mərkəzinə çəkilməsi nəticəsində pozulmuşdur. Lakin eyni zamanda Beketlə bağlı tarixi nəğmələr pyesdə dövrün ruhunu, sosial-tarixi hadisələrin mahiyyətini və xalqın ona münasibətini göstərmək istəyən dramaturqa kömək edir.

Elə buradaca`qeyd etmək yerinə düşər ki, Qazaxıstan rus imperiyası tərəfindən daha çox təqib və təsirlərə məruz qaldığından bu regionda müstəmləkəçiliyə qarşı çıxışlar daim ardıcıl və kəskin xarakter alırdı. XIX əsrin ortalarında da bu tipli çıxışlar səngiməmişdi. Həmin hadisələri İ.P.Annenkova-Bernard özünün 1923-cü ildə qələmə aldığı "Beket" qazax tarixi nəğmə-dramında təsvir etmişdi. Bu, yazıçının qazax səhralarında getmiş hadisələri qələmə alması, həm də onun sübutudur ki, Rusiya imperiya siyasəti ilə rus ziyalısının və yazıçısının qazax xalqının müstəmləkəçilik mübarizəsinə münasibəti heç də eyni rakursdan nəzərdən keçirilmirdi. Əsər 1923-cü ildə Orenburq Dövlət Teatrında öz səhnə təcəssümünü tapsa da, o qədər də geniş şöhrət qazanmamışdır. İ.Annenkova-Bernardın və M.Auezovun "Beket" adlı dramlarının ideya-bədii xüsusiyyət baxımından təhlili və müəllif konsepsiyası müqayisəli-qarşılaşdırıcı şəkildə aparılmış və müxtəlif səpkili təfəkkür sahiblərinin düşüncəsində folklor motivinin transformasiya xüsusiyyətlərinin araşdırılması ona gətirib çıxarmışdır ki, hər iki əsərin mövzu və süjet oxşarlığına baxmayaraq, onlarda tarixi hadisələrin interpretasiyasında prinsipial fərqlərin olduğu aşkarlanmışdır. Maraqlıdır ki, İ.P.Annenkova-Bernard yanaşmasında müstəmlə kəçiliyə qarşı mübarizə "qırgız" xalqının azadlıqsevər ruhunun dirçəlməsi kimi qələmə verilirsə, M.Auezovun adı çəkilən pyesində üsyan Qazaxıstanın müstəmləkəçilik boyunduruğuna qarşı olan aparılan qanunauyğun cavabı kimi ortaya qoyulur. İ.P.Annenkova-Bernardın əsərindəinsanların qiyamçı ruhu onu narahat edir, onu hökumət məmurlarının və hərbçilərinin vəziyyəti düşündürür. Buna görə də dramın süjet xətti, obrazlar sistemi transformasiya olunmuşdur. M.Auezovun əsərində isə məsələ başqa cürdür. Onun üçün qəhrəmanın dinamik portretini yaratmaq daha önəmlidir. Sənətkarın təsəvvüründə tarixi şəxsiyyətin hərəkət və fəaliyyəti onun şəxsi, fərdi keyfiyyətlərindən daha çox, yerli xalqın maraqlarını necə şərəflə qoruya bilmək önəmlidir. Məhz M.Auezovun qəhrəmana belə mövqedən yanaşması yazıçının tarixi təfəkkürünün tarixi materialı necə saf-çürük edib, öyrənib ortaya çıxarmasında özünü göstərir.

M.Auezov hesab edirdi ki, xalq yaradıcılığı nümunələrinin poetik bədii prinsip və struktur formalarından istifadə etmə həyatiliyin ən mühüm şərtlərindən biri olmaqla, həm də qazax mədəniyyətinin, dramaturgiya və teatr sahəsində perspektivlərinə xidmət edən məsələlərdəndir. Belə yanaşmanın əsaslandırılmış nümunəsini biz M.Auezovun "Ümumi teatr sənəti və qazax teatrı" (Jalpı teatr öneri men kazak teatrı - 1926) məqaləsində yer almış tezislərdə də görə bilirik.

Məqalədə müəllif milli mədəniyyətə məxsus əlamətləri fərqləndirməklə, onların teatr üçün necə önəm daşıdığını qeyd edir.

Əsərlərində gerçəkliyin realist təsvir prinsiplərinə söykənən M.Auezov dramatik xarakterlərin təqdimatını da milli bədii boyalarla verməklə obraz-tipləri diqqət mərkəzinə çəkib epik təsvir prinsiplərini dəf etməklə və xarakterlərin folklor dəyişilməzliyi prinsipini pozmaqla onların (yeni obrazların) müsbət və mənfiyə bölünməsini də məqbul hesab etmir. Məsələn, biz, pyesdə komik planlı Mamanın müxtəlif rakurslarda necə təqdim olunduğunu aşağıdakı vəziyyətlərdə görə bilərik: o bəzən təkəbbürlü bəy, bəzən diqqətli və qayğıkış ata, bəzən fiziki qüvvəsi tükənmiş rəqib, bəzənsə hamının yazığı gələ biləcək qoca kimi təqdim olunur.

M.Auezov bütün bunların hamısını bir şəxsin, obrazın üzərində konsentrasiya etməklə dramatik personajın tam şəkildə fərdiləşdirilməsinə nail ola bilmişdir.

Bunu da qeyd etməliyik ki, M.Auezov dramaturgiyasında folklor elementləri həm məzmun, həm də formaya görə müəyyən transformasiyalara məruz qalmışdır. Çünki çeşidli bədii strukturların qarşılıqlı münasibət prosesi M.Auezov tərəfindən mürəkkəb dialektik hadisə kimi qiymətləndirilir.

**Beləliklə, M.Auezovun bədii təfəkürünün tarixliyində onun estetik təcrübəsində folklorun mühüm bir dramatik sistem kimi iştirak etdiyini görə bilirik Auezov belə bədii prinsiplərdən istifadə etməklə folklorun struktur elementlərini yenidən konstruksiyalaşdırıb öz yaradıcılıq aləmində də mühüm dəyişikliklər və novasiyalara imza atmağa müvəffəq ola bilmişdir.**

Ədalət 2019.- 7 dekabr.- S.11.